BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2009*

# ƏDƏBİYYAT

## TARİXİ HƏQİQƏTLƏRİN BƏDİİ İFADƏSİ

**ALMAZ ƏLİQIZI**
***Bakı Dövlət Universiteti***
***almaz-aligizi@box.az***

Müasir nəsrimizin tanınmış yazarlarından olan Əzizə Cəfərzadə sənət dünyasında özünəməxsus üslubu, orijinal yazı tərzi, folklorumuza, milli qaynaqlara son dərəcə bağlı bir sənətkardır. 60 ildən artıq bir dövrü əhatə edən bu yaradıcılıq sənətkara həm tarixi, həm də müasir mövzuda maraqlı əsərlər meydana qoymağa imkan vermişdir. Yaradıcılığa 30-cu illərin sonlarından başlayan sənətkarı daha çox 60-cı illər nəslinə mənsub edirlər. Səbəb isə ilk yazısı çıxan zamanda sovet ideoloji sisteminin bütün sahələrdə olduğu kimi ədəbiyyat üzərində də görünməmiş basqısı idi. Müəllifin yazdıqlarına görə onun ilk əsərinin talesiz olmasına səbəb M.Zoşşenko və A.Axmatova kimi sənətkarların ətrafında yaranan dözülməz mühit, onlarla və bir sıra jurnallarla bağlı qəbul edilmiş qərarlar və həmin qərarların bütün keçmiş ittifaqın hər yerində özünü göstərməsi idi. Həyatı və daha çox yaradıcılığı keşməkeşlərlə dolu olan ədibin ilk hekayəsi «Əzrayıl» 1937-ci ildə, ilk kitabı 1946-cı ildə hazır olsa da oxuculara çatdırılmır, daha doğrusu, buna imkan verilmir. Onu «salon lirikası»nı təbliğ etməkdə, proletar həyatına və ideologiyasına yabançılıqda günahlandırırlar. Lakin illər keçir, yazıb-yaratmaq istəyi isə Ə.Cəfərzadəni bir an da olsun tərk etmir. Bu müddət ərzində gənc nasir axtarışlar aparır, tarixi mənbələrə müraciət edir, materillar toplayır. Bəlkə də bu işdə tədqiqatçılığı ona yardımçı olur. 1963-cü ildə «Natəvan haqqında hekayələr» kitabı ədəbi ictimaiyyətə təqdim olunur. Yaradıcılığa daha erkən başlasa da onun 60-cı illər nəsrinin görkəmli nümayəndəsi kimi qəbul edilməsi yəqin ki, bu səbəbdəndir. Elə ilk hekayələrindən məlum olur ki, ədibi tarixi şəxsiyyət və hadisələr daha çox alüdə edir. Əslində bədii yaradıcılığı müxtəlif mövzularda olsa da tarixi gerçəklik əsərlərdə daha mühüm əhəmiyyət kəsb edir, çünki Ə.Cəfərzadənin bütün yaradıcılıq imkanları və bədii istedadı məhz tarixi mövzuda yazılmış əsərləri ilə parladı. Tarixilik və müasirlik nasirin bütün yaradıcılığının qoşa qanadıdır. Çünki tariximizin ən dərin qatlarına müraciət edəndə də nasiri müasir düşüncə bir anda olsa tərk etmir. Təbii ki, onun bütün yaradıcılığının özül qatını təşkil edən bu əsərlərin hamısı haqqında danışmaq qeyri-mümkündür və biz bu iddiadan uzağıq.

60-cı illərdə ədəbiyyatda əmələ gələn təlatüm Azərbaycan nəsrindən də yan keçmədi. Avropada, Amerikada yaranan yeni ədəbiyyatın təsiri, keçmiş ittifaqa da yol tapdı. Rusiyada kənd və şəhər nəsri adlanan yeni bir dalğa ittifaq respublikalarına da təsirsiz qalmadı. Təsadüfi deyil ki, 60-cı illər Azərbaycan nəsrində – milli kök və qaynaqlara qayıdış, milli məfkurə və tarixi yaddaş, milli kalorit, milli adət-ənənələrə rəğbət və onların tərənnümü nəsrin aparıcı mövzularına çevrildi. Ancaq bu o demək deyildi ki, ədəbiyyat «sosialist realizmi» etiketindən tam azad olmuşdu. Yenə də sırf ideoloji əsaslara söykənən nümunələr yaranmaqda idi. İstəsək də, istəməsək də bütün bunlar sovet dövründə yaranırdı, sovet ədəbiyyatına daxil edilirdi.

Mərhum alimimiz Yaşar Qarayev 60-cı illər ədəbiyyatı haqqında yazırdı: «Altımışıncı illərdə və daha sonrakı ədəbi prosesdən sözün ideoloji istilah mənasında «sovet ədəbiyyatı», «sosialist realizmi» ədəbiyyatı yarlıkları altında söhbət gedə bilməz, hərçənd ki, ədəbiyyatın ümumi, magistral yolundan kənarda ənənəvi antiədəbiyyat – ehkamçı-qrammofon şeirin və nəsrin nümunələri yenə də yaranmaqda davam edirdi. Tarixi mərhələ, xronoloji əhatə baxımından o da «sovet ədəbiyyatı» idi, amma artıq klassik anlayışda «sovet ideologiyası»na xidmət etmirdi. Bütövlükdə ədəbiyyat öz pafosu etibarilə ehkama qarşı çevrilmişdi (1). Qətiyyətlə demək olar ki, Ə.Cəfərzadə tarixi mövzulara müraciət etməklə fikir və düşüncələrində daha çox sərbəst olmağa, milli-mənəvi dəyərlərimizi təbliğ etməyə, xalqı uzun illərdən soy kökündən uzaqlaşdıranların əksinə olaraq xalqın qan yaddaşını yenidən özünə qaytarmağa çalışırdı.

Öz köklərini 30-cu illərin sonlarından alan, 60-cı illərdə yeni mərhələyə daxil olan Azərbaycan tarixi roman janrı yeni inkişaf prosesinə qədəm qoydu. Bu illərdə tariximizin müxtəlif zaman və məqamlarını yada salan onlarla əsərlər meydana gəldi. Bunların sırasında tarixə daha çox müraciət etməsiylə seçilən, əlbəttə ki, Ə.Cəfərzadə idi. Bir müddət Dövlət Əlyazmaları Fondunda çalışan ədib ədəbi irsimizdən kifayət qədər material toplamış, gələcəkdə yazacağı əsərlər üçün zəngin mövzu verə biləcək tarixi fakt və sənədlərlə tanış ola bilmişdi.

«Şirvan» trilogiyası Ə.Cəfərzadənin ciddi axtarışlarının nəticəsi idi. Bu roman yaddaqalan tarixi şəxsiyyətlərilə deyil, bütünlükdə Şirvan ədəbi mühiti, o dövrün ictimai-siyasi prosesləri haqqında zəngin bilgi verən bir əsər kimi diqqəti cəlb edir. Burada tariximizin üç böyük şəxsiyyəti ilə tanış oluruq. Bunlar Nişat Şirvani, S.Ə.Şirvani və Abbas Səhhətdir. Əsərdə hadisələr XVIII-XIX əsrləri əhatə edir. Məlumdur ki, bu əsr Azərbaycanda müxtəlif ictimai-siyasi baxışların toqquşduğu, ziddiyyətlərlə dolu olan bir dövr kimi tarixdə qalmışdır. Müəllifin bacarığı onda idi ki, o bu üç şəxsin timsalında həm bu ziddiyyətləri göstərmiş, həm də ədəbi-mədəni tariximizin maraqlı, yaddaqalan lövhələrini yarada bilmişdi. Bu dövrü Azərbaycanın müxtəlif siyasi nüfuz dairəsinə bölünməsi dövrü kimi də xarikterizə etmək olar. Yazıçı tariximizin mürəkkəb bir dövrünü qələmə alarkən, yalnız tarixi faktları sadalamaqla kifayətlənməmiş, tarixi fakt və hadisələrə cağdaş dövrümüzün tələbləri səviyyəsindən yanaşmış, hər bir xırda detalı, milli koloriti saxlamış, onları beyin və ürəyinin süzgəcindən keçirərək vətənpərvərlik, qəhrəmanlıq, humanizm və bəşərilik kimi meyl və xüsusiyyətləri əsər boyu oxucunun nəzərinə çatdırmağa çalışmışdır. Əsər təxminən üç yüz illik bir dövrü

əhatə edir. Bu isə yazıçıdan mürəkkəb və ziddiyyətlərlə dolu olan bir dövrü vermək, müxtəlif tarixi hadisələri vətənpərvərlik ruhu ilə oxucuya çatdırmaq məsuliyyəti tələb edir. Bu dövr həm də xalqımız üçün ağrı-acıyla dolu olan, tarixin amansızlığı nəticəsində Rusiya ilə İran arasında vətənimizin ikiyə bölünməsi və bədnam «Gülüstan» müqaviləsinin bağlandığı dövrdür. Təsadüfi deyil ki, tədqiqatçılar bu məsələlərə xüsusi önəm verir, Əzizə xanımın «yaradıcılıq prosesində təkcə bədii təxəyyülün gücünə» arxalanmadığını, qələmə aldığı dövrü, şəraiti, tarixi hadisə və faktları ətraflı öyrəndikdən, dərindən əxz etdikdən sonra işə başladığını (2) qeyd edirlər.

30-cu illərdə Azərbaycan nəsrində tarixi romanın əsasını qoyan M.S.Ordubadi kimi Əzizə Cəfərzadə də bu əsərini trilogiya şəklində yazmışdır. Üç kitabdan ibarət olan Şirvan trilogiyasının birinci hissəsi «Vətənə qayıt» romanıdır. Trilogiyanın ilk kitabı həm əsərin qəhrəmanı Nişat Şirvaninin həyatına, həm də əsərdə onun həyatı fonunda romanın ikinci əsas xətti olan vətənpərvərlik məsələsinə həsr olunub. Çünki əsərin qəhrəmanı Nişatı düşündürən vətən və onun taleyidir. Xalqın arasında böyük hörmət, izzət sahibi kimi tanınan Nişat Şükür bəylə Aslan ağa arasında olan qan davasına son qoymağa çalışır. Yadellilərə qarşı mübarizədə vətən ovladlarının birliyinin vacib olduğunu düşünən şair ağlı və zəkası ilə daxili birliyi qoruduğu kimi yeri gələndə vətən uğrunda döyüşlərə də atılır, Şirvanın İran əsgərlərindən xilas olması üçün əlindən gələni əsirgəmir. Hər zaman həqiqəti söyləyən, heç kimdən çəkinməyən şair Nişat özünü xan elan etmiş Əsgər bəyin üzünə düşündüklərini – xalqa zidd mövqedə dayandığını söylədiyi üçün təhqir olunur, nəhayətdə isə Şirvandan sürgün edilir. Bütün məhrumiyyətlərə baxmayaraq o haqq uğrunda döyüşməkdən usanmır, bu yolda şəhid olanların da qədrini əziz tutur. Nişatın Əsgər bəyə dedikləri bunu bir daha sübut edir.

«Səni mərd bildilər, sənə qahmar çıxdılar, millət qəhrəmanı kimi qoruya-qoruya uğrunda qan tökdülər, amma namərd çıxdın, haqq üçün vuruşanların qanının torpaqdan hələ izi getməmiş, sən onları tapdadın, mərd sındırdın, namərd oldun. Mərdlə namərd qardaş olmur, səndən o el qurbanlarına nə qardaş? Sən məqsəd axtarırdın, əlinə keçirdin. İndi də bildiyini eləyirsən. Dünən qabağında gedənlərə arxa çevirirsən. Allah qəzəbindən qorxmasan da, xalqın qəzəbindən qorx! El qəzəbinin başı açılanda, qabağında heç nə duruş gətirə bilməz, dağ seli kimi önünə çıxan xarüxəsi aparır!» (3).

Nişat Şirvaninin bu sözlərinə heç bir şərh gərək deyil. Müəllifin qənaəti belədir ki, zamanından və şəraitindən asılı olmayaraq xalqın önündə gedən ziyalı hər vaxt sözünü deməyi bacarmalı, heç nədən, heç kimdən qorxmadan həqiqəti müdafiə etmək cəsarətini özündə saxlaya bilməlidir. Əsərdə kifayət qədər obrazlar var ki, onların da hər birinin fəaliyyəti əsərin qəhrəmanının daxili aləminin açılmasına yardımçı olur.

«Vətənə qayıt» tarixi romanında Raci, Ağahüseyn Gülali, Ağasəlim Şirvani və digərlərinə az yer verilsə də, onlar oxucunun yaddaşında əbədi həkk olurlar. Bu müsbət insanlardan fərqli olaraq əsərin mənfi qəhrəmanları daha geniş planda verilir. Bəlkə də Əzizə xanım bu surətləri daha ətraflı verməklə Azərbaycanda gedən ictimai-siyasi proseslərin daha aşkar, daha əhatəli açılmasına səy göstərmişdir. Bunların sırasında Əsgər bəy daha yaddaqalan obrazdır. O, yalnız dostlarına qarşı deyil, çətin məqamlarda ona dəstək olan bütün insanlara, vətənpərvərlərə xəyanət

edir. Əsərin sonunda o, bütün günahlarını etiraf etsə də, etdiklərindən peşiman olsa da, artıq gecdir, olan olub.

Romanda əsas qayə yadellilərə qarşı güclü nifrət hissinin olmasıdır. Əsərdə bəzi məqamları isə unutmaq olmur. O da vətən ovladlarının, xüsusən qadın və qızların düşmənlər tərəfindən əsir kimi aparılması epizodlarıdır.

Yadellilərə nifrət xəttindən başqa digər bir xətt – məhəbbət xətti də əsərdə güclü və inandırıcı verilir. Təəssüflər olsun ki, bu qədər dərin mənalı tariximizin müəyyən məqamlarını özündə əks etdirən bu əsərə də sovet ideoloji təsiri özünün möhürünü vurub. Romanda ən güclü və bitgin məhəbbət Nəcəf və Maro xəttidir. Nədənsə bizim bədii ədəbiyyatımızda, hələ «Əsli və Kərəm» dastanından başlayaraq gələn bu xətt çağdaş dövrümüzə qədər gəlib çatıb. Başımıza gələn bəlaların bir ucu da belə «məhəbbətlər»ə gedib çıxır. Ona görə də, əsərdə müəyyən qədər yer verilən Nəcəf və Maro xətti üzərində çox dayanmadan (baxmayaraq ki, əsərdə ən güclü və bitgin məhəbbət xəttidir) Şəbnəm bəyimin Nəcəfə olan güclü, lakin cavabsız məhəbbəti üzərində dayanmaq istəyirik.

Ehsan bəyin baldızı olan Şəbnəm bəyim vətən qızlarının ümumiləşdirilmiş obrazıdır. Vətənini qəlbən sevən, onun insanlarına xüsusi məhəbbət və rəğbəti olan, at minən, silah tutan bu qəhrəman xislətli qız şair Nəcəfə vurulur. Onun mərdliyi, aslan tinətli olması bir də ondan irəli gəlir ki, o şair Nişata olan sevgisini heç kimdən gizlətmir, yalnız Nişatın şeirlərinin pərəstişkarı deyil, özünün də vurğunudur. Lakin onların arasında uçurum olduğu üçün birləşmələri də mümkün deyil. O, bəylərbəyi Ehsan bəyin baldızı, Xançobanı tayfasının başçısı Əsgər bəyin bacısıdır. Əsərin sonunda Şəbnəm bəyim ürəyində olmayan, sevmədiyi Şükür bəyə qismət olur. Yazıçı onu tam müsbət cəhətdən oxucuya təqdim edir. O, vətənə, millətə bütün varlığı ilə bağlı olan bir insandır. Şəbnəm bəyim lazım gələndə əyninə kişi paltarı geyinib döyüşə gedir. Nişatı vətənə qayıtmağa sövq edən də Şəbnəm bəyim olur. Bu qəhrəman xanım lazım gələndə müdrik, dünyagörmüş, ahıl bir insan kimi düşünür, yalnız bu günlə deyil, sabahla yaşayır, vətənin işıqlı sabahına inanır. İnanır ki, vətənin sabahını yaşadan, onun tarixini yaradan Nişat kimi ziyalılar, şairlərdir. Ona görə də, onlar vətənə lazımdır. Belə insanlar var olduqca vətən, millət də var olar. Bunu düşünə bilən isə ən midrik insan ola bilər. Hakimiyyət və vəzifənin Nişat kimi insanların yanında ötəri və qiymətsiz olduğunu gözəl anlayır. Odur ki, şairlə söhbətində onun bu günümüz və gələcəyimizlə bağlı fikirləri insanı düşünməyə vadar edir: «Hamımız gedəri olsa, bəs balalarımızı kim oxudacaq? Kim onlara bütün bu olub keçənləri deyəcək, təlim eləyəcək ki, heç bir şey heç birimizin yadından çıxmasın... Şirvana qayıt deyirəm, şirvanlılar bir Əsgər bəydən, bir Qiyəsəddin molladan ibarət deyil. Orada sənin yüzlərlə pərəstişkarın, dostun, oxucuların var. Sən deyəni deyənlər var. Hamınız getsəz oğullarınızı kimə tapşırırsınız?... Ərəbistana gedən ərəbcə, farsistana gedən farsca yetər. Bəs, öz dilimiz, öz elmimiz necə olsun? Onu kim yaşadacaq, sənin kimilərin hamısı dağılışıb getsə?... » (3).

Göründüyü kimi, Şəbnəm bəyimin dedikləri bizim mütəfəkkirlərimizi də daim düşündürüb. Burada dil məsələsi ilə bağlı, balalarımızın təhsili ilə bağlı səslənən sözlər Mirzə Cəlilin hekayə və felyetonlarında və «Anamın kitabı» dramında səslənmirmi? Ona görə də, Şəbnəm bəyimin dedikləri vətən üçün, vətən övladı və onun sabahı üçün çox önəmlidir. Bu qadın bir

daha sübut edir ki, o, daha dərin, daha qlobal düşünə bilir.

«Vətənə qayıt» romanında digər qəhrəman qadın obrazı Salyan hakiminin arvadı Qəbilə xanımdır. Rus məmurları ilə döyüşən, millət və vətən təəssübü çəkən bu xanım lazım gələndə əyninə cəngavər paltarı geyinib ruslarla döyüşə gedir. Rus məmurlarını tənbeh etmək istəyir.

«Vətənə qayıt» romanı ibrətamiz və ümidverici sonluqla bitir. Vətəni Şamaxıdan sürgün olunan şair Nişat Şırvani yenidən vətənə qayıdır. Tarixi hadisə və şəxsiyyətlərə müraciət edən Əzizə Cəfərzadə müasir tarixi düşüncə ilə əsəri bitirir. Vətəndən uzaqlarda olanlar gec-tez vətənə qayıtmalıdırlar. Bunun başqa yolu yoxdur. Doğulub, boya–başa çatdıran torpaq insanı həmişə çəkir. Dünyanın harasında olsan da vətəni heç nə əvəz etmir. Tarixi bir dönəmi əhatə etsə də, əsərdə qoyulan ideya son dərəcə müasirdir. Çünki bu gün vətən torpaqlarını tərk edib, başqa ölkələrə üz tutanlar gec-tez haqq yoluna qayıdaraq vətənə dönəcəklər.

Romanda kifayət qədər tarixi faktların olması əsərə xüsusi rövnəq vermiş, onu zənginləşdirmişdir. Əzizə Cəfərzadə yaradıcılığına müraciət edən tədqiqatçılar əsərin bu cəhətini xüsusi qiymətləndirmişlər. Doğrudan da, tarixi keçmişə müraciət etmək, müəyyən tarixi dövrün ictimai hadisələrini, onların cəmiyyətə təsirini və bir çox məsələlərin bir roman daxilində bədii həllini tapmaq, yazıçıdan böyük məharət tələb edir. Çünki bütün bunları bədii təfəkkür süzgəcindən keçirərək yazmaq insandan böyük zəhmət, səbr, araşdırıcılıq qabiliyyəti, həm də xalqın təfəkkürünə, onun fəlsəfi-etik təkamülünə yaxından bələd olmaq, yaradıcılıq səriştəsi tələb edir.

Əzizə Cəfərzadə müraciət etdiyi dövrü yaxşı bildiyindən oxucunu da yazdıqlarına inandıra bilir. Bu səbəbdən «Vətənə qayıt» romanı böyük maraq doğurur. Çünki yazıçı faktları quru-quru sadalamamış, tarixi hadisələrə uğurlu yazıçı müdaxiləsi ilə maraqlı bir əsər ortaya qoya bilmişdir. Bir məqalə həcmində trilogiyanın birinci kitabı haqqında danışa bildik. Trilogiyanın ikinci hissəsi «Aləmdə səsim var mənim» üçüncü hissəsi isə «Yad et məni» romanlarıdır. Trilogiyanın iki sonuncu hissələri haqqında növbəti məqaləmizdə danışmağa çalışacağıq.

## ƏDƏBİYYAT

1. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 250 s.
2. Bu barədə bax! Əlimirzəyev X. Şair təbiətli naşir, «Azərbaycan qadını» // 1982, №1, 6-7 s.
3. Cəfərzadə Ə. Vətənə qayıt. Bakı: Gənclik, 1977, 302 s.

## ХУДОЖЕСТВЕННОЕ ВЫРАЖЕНИЕ ИСТОРИЧЕСКИХ ИСТИН

АЛМАЗ АЛИГЫЗЫ

## РЕЗЮМЕ

В современной азербайджанской литературе Азиза Джафарзаде является признанным мастером исторических романов. В статье, названной «Художественное выражение исторических истин» и «Поиски личности и художественной действительности писателя», говорится о ее трилогии «Ширван», объединяющей романы «Всюду слышен голос мой», «Возвращение на родину» и «»Вспоминай меня». Наряду с образами таких знаменитых личностей, как С.А.Ширвани, М.А.Сабир и А.Саххат, основное место в три-

логии занимают противоречия XIX века, жизнь и деятельность знаменитых людей того периода.

Автор статьи отмечает отсутствие однозначного отношения к произведениям писательницы, выражает свое отношение к подобным мыслям и суждениям, вступает в научную полемику.

## ARTISTIC EXPRESSION OF HISTORICAL TRUTH

**ALMAZ ALIGIZI**

## SUMMARY

In the modern Azerbaijan Literature Aziza Jafarzadeh is a well-known expert of historical novels. The articles “Artistic expression of historical truth” and “The research of the personality and artistic realities of the author” discuss her triology “Shirvan” uniting the novels “My voice is heard everywhere”, “The return to motherland” and “Remember me”. Along with the images of such famous personalities as S.Q.Shirvani, M.Q.Sabir and Q.Sahhat, the main place in the trilogy is occupied by the contradictions of the XIX century, the life and activity of famous people of that period.

The author of the paper marks the absence of simple attitude to the writer’s works and expresses her attitude towards the similar ideas and judgments, starts scientific polemics.